Ədəbiyyat qəzeti

21 noyabr / 2020



**Cavidə MƏMMƏDOVA**

*filologiya üzrə fəlsəfə doktoru, dosent*
*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*

# Ali Baş Komandanım

*Verdin döyuş əmrini, yer oynadı yerindən,*
*Düşmən təşvişə düşdü od saçan qəzəbindən,*
*Ordumuz qüvvət aldı Sənin qətiyyətindən.*
*Qələbəyə, zəfərə, uğura yol açanım,*
*Ali Baş Komandanım!*

*Allahın nəzərləri üzərinə enibdir,*
*Səndə qədim türklərin ruhu təzələnibdir,*
*Millətimin dilində adın əzizlənibdir,*
*Dünyaya tarix dərsin yenidən oxudanım,*
*Ali Baş Komandanım!*

*Ulu Öndər məktəbin ləyaqətlə keçmisən,*
*Bu dünyada ən ağır, ən çətin yol seçmisən,*
*Bu şərəfli yolda Sən Qurana and içmisən.*
*Quran olsun köməyin, anda sadiq qalanım,*
*Ali Baş Komandanım!*

*Bu yol Heydər yoludur, ona bayraqdar oldun,*
*Həm oğul, həm vətəndaş, həm də Komandan oldun,*
*Qələbəylə, zəfərlə bu əsrə imza qoydun.*
*Dünyanın tarixində yeni səhifə açanım,*
*Ali Baş Komandanım!*

*Qoca türkün oğlusan, göyə ucalsın başın,*
*Bu millətin adıyla daim yaşasın adın,*
*Yurduma göz dikənin dünya duysun fəryadın!*
*Ey yurdumun İlhamı, mənim şərəfim, şanım,*
*Ali Baş Komandanım!*